**UOT 94(479.24):022.9(479.24)**
**KBT T3(2A)7+Ч738.3(2A)**

# Azərbaycanda multikulturalizmin təbliği və onun kitabxana-informasiya təminatı

**N.R.Mürsəlov**
magistrant_bdu@mail.ru

**Xülasə:** *Məqalədə respublikamızda multikultural mühitin formalaşması,multikultural dəyərlərin kitabxana-informasiya təminatı istiqamətindəki fəaliyyət, azsaylı xalqların milli-mənəvi, mədəni-dini irsinin mühafizəsi və təbliği üzrə fəaliyyətin vacibliyindən bəhs edilir.*

**Açar sözlər:** *adət-ənənə, komplektləşdirmə, dövlət dəstəyi, xalqlar*
**Ключевые слова:** *традиции, приобретение, государственная поддержка, народы*
**Key words:** *customs and traditions, acquisition, state support, peoples*

Azərbaycanda mövcud olan multikulturalizm mühiti və bu məsələdə ölkəmizin təcrübəsinin öyrənilməsi bir sıra beynəlxalq ekspertlər tərəfindən vacib hesab edilmişdir. Reallıq budur ki, multikulturalizm bizim xalqımızın həyat tərzidir. Nisbətən yeni anlayış olmasına baxmayaraq, bu, əsrlər boyu xalqımıza xas olan bir xüsusiyyətdir. Ölkəmizdə multikulturalizmin inkişafı sülhün, təhlükəsizliyin, dincliyin təmin edilməsi üçün çox mühüm vacib bir elementdir.

Azərbaycanda müasir informasiya cəmiyyəti şəraitində elmi, milli-mədəni, bədii və intellektual səviyyənin yüksəlməsi və millətlərarası mədəni dialoqun təbliğinin informasiya təminatı əsasən kitabxanalarda cəmləşdirilmiş sənəd-informasiya resurslarından səmərəli istifadə edilmədən mümkün deyildir. Azərbaycanda ölkə əhalisinin maarifləndirilməsi, dünya elmi nailiyyətlərinin respublikamıza gətirilməsi, millətlərarası elmi-mədəni mübadilənin təmin olunması məqsədi ilə 2014-cü ildə Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu təsis edilmiş və ölkədə tolerantlığın, etnik-mədəni, dini, linqvistik müxtəlifliyin qorunması, həmçinin mövcud multikultural modellərin tədqiqi və təşviqi üçün Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılmışdır.

Ölkəmizdə dini tolerantlığın və multikultralizmin mövcud vəziyyətini regionlar üzrə dəyərləndirmək və cəmiyyəti millətlərarası münasibətlər, multikultralizm və dini məsələlər üzrə dövlətin fəaliyyət istiqamətləri barədə məlumatlandırmaq məqsədi ilə respublikanın iri kitabxana-informasiya müəssisələrində

və regionlarda yerləşən kütləvi kitabxanalarda ziyalılar, dini qurumların nümayəndələri eləcə də, müxtəlif yaş təbəqələrinə mənsub insanlarla, xüsusilə də gənclərlə görüşlər keçirilir, fikir mübadiləsi aparılır, onların rəy və təklifləri dinlənilir [1, s.6].

Cəmiyyətin elmi-fəlsəfi, milli-mənəvi, bədii-estetik zövqünün formalaşmasında və multukulturalizm sahəsində əhəmiyyətli olan sənəd-informasiya ehtiyatları və vasitələri çoxcəhətlidir. Sənəd-informasiya ehtiyatları nəşr formasında maddiləşir, bununla da ondan məqsədyönlü sosial istifadə üçün imkan yaranır. Nəticə etibarilə sənəd-informasiya axını və fondu formalaşır, zənginləşir və kitabxanalarda mühafizə olunur.

İnsanın fəaliyyət sahələrinin ixtisaslaşması, onların sənəd-informasiya təminatının və kitabxana-biblioqrafik resurslarının da ixtisaslaşmasına səbəb olur. Belə ixtisaslaşmış fəaliyyətdən biri də multikulturalizm və mədəni-dini irsin qorunmasıdır.

Multikulturalizm - *eyni bir ölkədə yaşayan müxtəlif xalqların nümayəndələrinin mədəniyyət hüquqlarını tanıyan humanist dünyagörüşü və ona uyğun olan siyasətdir. O, ayrıca götürülmüş ölkədə və bütövlükdə dünyada müxtəlif millətlərə və məzhəblərə məxsus insanların mədəni müxtəlifliklərinin qorunması, inkişafı və harmonizasiyasına, azsaylı xalqların dövlətlərin milli mədəniyyətinə inteqrasiyasına yönəldilib.*

Multikulturalizm deyəndə, ayrılıqda götürülmüş bir ölkədə və ya bütövlükdə dünyada mədəniyyətlər arasında fəqliliyin saxlanmasına yönəldilmiş siyasət və bu kimi siyasəti əsaslandıran nəzəriyyə, ideologiya başa düşülür. Burada ayrı-ayrı etnik qrupların öz milli mədəniyyətlərini saxlamaq hüququ ilə yanaşı, həm də ana dilində təhsil almaq, siyasi baxışlarını açıqlamaq və digər imtiyazlar nəzərdə tutulur. Bu da sözün əsl mənasında hər bir etnik qrupun yaşadığı mühitdən asılı olmayaraq, milli mənliyini, özünəməxsusluğunu saxlamaq hüququnun tanınması deməkdir.

Qloballaşma prosesi genişləndikcə milli mədəniyyətlərin qorunub saxlanması və inkişafı daha mühüm əhəmiyyət kəsb etdiyindən hər dövlətin öz xalqı və gələcək nəsillər qarşısında tariximəsuliyyətini artırır. Bu səbəbdən Azərbaycan rəhbərliyi milli mədəniyyətin inkişafını dövlət siyasətinin prioritet istiqamətlərindən hesab edir. Prezident İlham Əliyev II Bakı Beynəlxalq Humanitar Formdakı çıxışında demişdir: "Multukulturalizmə alternativ yoxdur. ... Bir daha tam əminliklə deyə bilərəm ki, multukulturalizm gələcək inkişaf üçün ən məqbul variantdır. Çünki multukulturalizmin alternativi özünütəcriddir [1, s. 5]."

Müasir dövrdə daha böyük aktuallıq kəsb edən fəaliyyət sahəsi kimi multikulturalizm üzrə aparılan geniş tədqiqatlar humanist və demokratik nəzəriyyə və ideologiya olaraq multikulturalizmin, tolerantlığın, yüksək fərdi və beynəlxalq mədəni münasibətlərin, insanlar arasında qarşılıqlı anlaşma, birgə zəngin-

ləşmə, dostluq və əməkdaşlığın təbliğinə yardım edən mühüm sahəyə çevrilmişdir. Bu sahənin özünəməxsus spesifik xassələrindən biri onun fəaliyyət göstərməsi üçün böyük miqdarda faktoqrafik informasiyaya ehtiyacın olmasıdır. Bir qayda olaraq belə informasiya sənədli formada tərtib edilir və tələbatçılara çatdırılır. Bu səbəbdən də, həmin sahə üzrə tədqiqatlarda kitabxana-informasiya təminatının təşkilinə böyük diqqət yetirilir. Multikulturalizm sahəsində elmi fəaliyyətin və təbliğatın uğurla həyata keçirilməsi üçün sahə üzrə ilkin sənədlərlə və həmin sənədləri özündə əks etdirən biblioqrafik informasiya ilə təmin edilməsi zəruridir.

Multikultural dəyərlərin kitabxana-informasiya təminatı istiqamətində fəaliyyət, bu sahədə mövcud sənədlər və informasiya tələbatçıları arasında uyğunluq yaratmaq, müvafiq sənəd kommunikasiyası sistemində informasiya maneələrinin aradan qaldırılmasında səmərəli vasitə olmaqla informasiya təlabatının təminatına xidmət edir.

Multikulturalizm üzrə kitabxana-informasiya təminatının əsas vəzifəsi həm azsaylı xalqların milli-mənəvi, mədəni-dini irsinin mühafizəsi və təbliği üzrə fəaliyyətin, həm də onun kitabxana-informasiya tələbatının, sənəd axını və kütləsinin ətraflı öyrənilməsindən, elmi təhlilindən, mövcud vəziyyətin qiymətləndirilməsindən və bu sahə üzrə proqnozların verilməsindən ibarətdir.

Multikulturalizm üzrə kitabxana-informasiya təminatı sahəsində əsas fəaliyyət istiqaməti isə kitablar, dövri və ardı davam edən nəşrlər, dissertasiyalar və avtoreferatlardan ibarət sənəd-informasiya resursları fondunu zənginləşdirmək, mühafizə etmək, onlardan istifadəni təmin etmək və sənəd-informasiya resursları fondunu özündə əks etdirən mükəmməl informasiya axtarış sistemi (ənənəvi və elektron kataloq), elektron kitabxana və biblioqrafik vəsaitlər sistemini tətbiq etməklə tələbatçıların hərtərəfli istifadəsinə verməkdən ibarətdir.

Azərbaycanda multukulturalizmin təbliği üzrə kitabxana-informasiya təminatı sistemində respublikada fəaliyyət göstərən kitabxanalar fəaliyyətlərini müasir tələblər səviyyəsində qurmuşdur. Kitabxanalar əsas vəzifələri olan ənənəvi və elektron kitabxana vasitəsi ilə multukulturalizm üzrə oxucularının informasiya tələbatını operativ ödəyir və onlara dolğun informasiya xidmət göstərir.

Kitabxanaların multukulturalizmin təbliği sahəsində əsas fəaliyyət istiqaməti:

- sahə üzrə kitablar, dövri və ardı davam edən nəşrlər, normativ-texniki və patent sənədləri, dissertasiyalar və avtoreferatlardan ibarət sənəd-informasiya resursları fondunu zənginləşdirmək, mühafizə etmək və onlardan istifadəni təmin etmək;
- multukulturalizm üzrə kitabxananın sənəd-informasiya resursları fondunu özündə əks etdirən mükəmməl informasiya axtarış sistemi (ənənəvi və elektron kataloq), elektron kitabxana və biblioqrafik vəsaitlər sistemini tətbiq etməklə oxucuların hərtərəfli istifadəsinə verməkdən ibarətdir.

Hazırda kitabxanaların sənəd-informasiya fondunun multukulturalizm üzrə ədəbiyyatla komplektləşdirilməsinin əsas mənbələri aşağıdakılar:

- Məcburu nüsxə;
- Abunə;
- Kitab mağazlarından satınalma;
- Beynəlxalq və respublika daxili kitab mübadiləsi;
- Ayrı-ayrı müəlliflər, yerli və xarici təşkilatlar tərəfindən hədiyyələr.

Qeyd etmək lazımdır ki, ölkə kitabxanalarının, o sırada da Respublika əhəmiyyətli kitabxanaların fondlarının multikulturalizm üzrə yerli nəşrlərlə komplektləşdirilməsində Azərbaycan Respublikasının Milli Məclisinin 1998-ci ildə qəbul etdiyi "Kitabxana işi haqqında" qanunun çox böyük rolu vardır. Qanunun 15-ci maddəsinə əsasən, kitabxanalar dövlət və qeyri-dövlət nəşriyyatları tərəfindən buraxılan profilinə uyğun çap məhsullarını və digər informasiya daşıyıcılarını birinci növbədə almaq hüququna malikdir.

Beləliklə Azərbaycanda multikulturalizmin kitabxana-informasiya təminatının elmi yeniliyi özündə aşağıdakı istiqamətlərdə büruzə verir:

1. Kitabxanaların multikulturalizm üzrə sənəd-informasiya resurslarının formalaşması, inkişafının ilk dəfə olaraq elmi araşdırması;
2. Multikulturalizmin mahiyyəti və məzmununun metodiki və hüquqi əsaslarının elmi şərhinin verilməsi;
3. Kitabxanalarda multikulturalizmin təbliğində informasiya texnologiyalarının tətbiqi prosesinin vəziyyəti və təkmilləşdirilməsi yollarının araşdırılması.

## Ədəbiyyat

1. Babayev E.A. Multukulturalizm, sovet "pozitiv seqreqaiyası" və milli-mədəni dəyərlərin transformasiyası //Azərbaycanşünaslığın aktual problemləri. V Beynəlxalq elmi konfransın materialları. s.76-78

## Пропагандирование мультикультурализма в Азербайджане и его библиотечно-информационное обеспечение

Н.Р.Мурсалов

### РЕЗЮМЕ

*В статье рассматривается формированиемультикультурной среде в республики, мультикультурной среде, предоставление библиотеки и информации поликультурных ценностей, коренных народов и национально-духовного, культурного и религиозного наследия о важности защиты и поощрения*

**The propaganda of multiculturalism in Azerbaijan and its library-information provision**

N.R.Mursalov

**SUMMARY**

*The article discusses the importance of the formation of a multicultural environment in republic, activities of multicultural values in the direction of the library and information maintenance, protection and promotion of national spiritual, cultural and religious heritage of minorities.*